"Dəli Kür" filmi böyük yazıçının milli kinomuza ən layiqli töhfəsidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il yanvarın 28-də Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncamda deyilir: "İsmayıl Şıxlı koloritli xarakterlər və yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik surətlərlə zəngin yaradıcılığı ilə Azərbaycan xalqının bədii fikir salnaməsinə yeni parlaq səhifə yazmış söz ustalarındandır. Ədibin məşhur "Dəli Kür" romanı ictimai şüurda dönüşə və özünüdərkə yol açan mühüm ədəbi-mədəni hadisə kimi qiymətləndirilmişdir".

"Dəli Kür" romanı Azərbaycan ədəbiyyatında böyük hadisə idi. Bu romanın ekranlaşdırılması isə milli kinomuzun qiymətli nümunəsidir və uzun illərdir ekranlarımızda sevilə-sevilə baxılır.

Filmə kinorejissor, Xalq artisti Hüseyn Seyidzadə quruluş vermişdi. Çəkilişlərə ciddi hazırlıq işləri aparılmışdı. Ələddin Abbasovun baş rola – Cahandar ağa roluna dəvət edilməsi də təsadüfi deyildi. Rejissor, Ələddin Abbasovu yaxşı tanıyırdı və elə ilk sınaq çəkilişindən onu bu rola təsdiq etmişdi.

İsmayıl Şıxlı özü də filmin çəkilişlərində iştirak edirdi. Yazıçının oğlu Elçin Şıxlı belə xatırlayır: "Kürün üzərindən helikopterlə olan çəkilişlərdə Hüseyn Seyidzadə xəstələndiyi üçün iştirak etməyib, operator Yuri Varnovski ilə atam çəkilişdə olublar. Helikopterin pəri özündən ağırdır, ona görə də orda paraşüt olmur, nasazlıq yaranan kimi helikopter başı aşağı çönür və qəza qaçılmaz olur, ordan xilas mümkün deyil. Çəkiliş vaxtı kameranın əsməməsi üçün 20 saniyəlik mühərriki söndürmək lazım gəlib. Orda yalnız operatorun və pilotun peşəkarlığı əsas rol oynayır, çəkiblər və çox uğurlu da kadr alınıb".

Yazıçı öz romanının ekran taleyindən narahat idi. Amma rejissora inanırdı və bilirdi ki, Hüseyn Seyidzadə xalqın milli –mənəvi dəyərlərinə yaxından bələd olan istedadlı sənətkardır.

"Dəli Kür" filminin taleyi Hüseyn Seyidzadənin öz taleyi kimi ağrılı olub. 1969-cu ildə Xalq yazıçısı İsmayıl Şıxlının eyniadlı romanı əsasında yazdığı ssenari ekranlaşdırıldı və 1970-ci ildə film ekranlara çıxarılan zaman Moskvada senzuranın qəzəbinə tuş oldu. Aşağıda filmdən çıxarılan epizodları diqqətə çatdırırıq. Qubernator Cahandar ağaya deyir ki, canişin onun torpağında ov etmək istəyir. Ya torpağı satın, ya da bağışlayın. O isə cavab verir ki, torpağı nə satarlar, nə də bağışlayarlar. Cavabında qubernator deyir: "Baxarıq!" Sonra kazaklar Cahandar ağanın üstünə göndərilir.

Bundan başqa, digər bir epizod da filmdən kənar edilib. Nökərlər gəlib Cahandar ağaya deyirlər ki, kazaklar mal-qaranı aparıb, özümüzü də döydülər. Cahandar ağa isə kazaklara deyir ki, bu sizin ata-baba torpağınızdır? Onlar isə: "Deyəsən, könlündən Sibir keçir" – deyirlər. Cahandar ağa kazakların başçısını qamçı ilə döyür. Sonra atışma başlayır. O, kazakların beşini öldürür. Onu vururlar. Cahandar ağa özünü suya atır, bununla da film qurtarırdı. Və "Ana Kür" mahnısı oxunurdu. Bütün bunlar filmdən çıxarılmışdı. Rejissor çox səy göstərmişdisə də, filmi tam şəkildə xilas edə bilməmişdi. Çünki imperiya öz qaniçən xislətini göstərməyə imkan verə bilməzdi. Film uzun zaman ekranlarda bu epizodlarsız göstərildi. Lakin xalq yazıçısı İsa Hüseynovun ciddi səyi nəticəsində 90-cı illərin ortalarında televiziya vasitəsilə həmin epizodlar ekranda canlandırıldı və filmin ilkin nüsxəsi tamaşaçılara təqdim olundu.

Sovetlər Birliyinin tərkibində olan bir respublikanın öz milli bayramını təmtəraqlı surətdə qeyd etməsi ağlasığan bir şey deyildi. Hüseyn Seyidzadə cəsarətlə "Dəli Kür"də Novruz bayramını çox təmtəraqla çəkərək təqdim etmişdir. Filmdəki rus ziyalısının yumurta döyüşünü xatırlayın. Görün nə gözəl səhnədir. Sonralar həmin səhnəni tənqid edənlər də çox oldu. Ancaq əsas olan o idi ki, Hüseyn Seyidzadə milli bayramın bütün gözəlliklərini təsvir edə bilmişdi.

Bu film Azərbaycan milli kino tarixinin qiymətli nümunələrindəndir və dünyanın 50-dən çox ölkəsində nümayiş olunub.

M.MÜKƏRRƏMOĞLU,
"Xalq qəzeti"